**Həmid Aqil oğlu Hüseynzadə**

**UOT:330.34:334.764:334.764.47; JEL:L59;O14;O38.**

# Müasir dövrdə texnoparklarda maliyyə mexanizmlərinin xüsusiyyətləri və qiymətləndirilməsi

***Xülasə***

*Tədqiqatın məqsədi – müasir dövrdə texnoparklarda maliyyə mexanizmlərinin xüsusiyyətləri və qiymətləndirilməsindən ibarətdir. Bunun üçün texnoparkların fəaliyyət mexanizmləri, funksiyaları və onların innovasiya strukturu kimi mahiyyəti açıqlanmışdır. Texnoparkların fəaliyyətinin qiymətləndirilməsi üçün meyarlar baxılmış və ümumiləşdirilmişdir. Müasir dövrdə texnoparkların dövlət tərəfindən maliyyələşdirilməsi mexanizmləri müəyyənləşdirilmişdir. Azərbaycanda tədqiqat və işləmələrə çəkilən daxili xərclər təhlil olunmuş və maliyyə mənbələri göstərilmişdir. Texnoparklara verilən güzəştlər baxılmış və onların maliyyələşdirilməsində dövlət dəstəyi mexanizmləri istiqamətində problemlər və həlli yolları verilmişdir. Hazırkı şəraitdə texnoparklarda maliyyə mexanizmlərinin gücləndirilməsi üzrə metodiki yanaşmalar müəyyənləşdirilmişdir. Tədqiqatın metodologiyası – baxılan problemlər üzrə müasir qlobal şəraitdən irəli gələn vəzifələr nəzərə alınmaqla, təhlil və sintez, ümumiləşdirmə, müqayisə metodlarından ibarətdir, burada başlıca yanaşmalar kimi bir sıra alim və tədqiqatçıların elmi-metodiki işləmələri və baxışları, əldə olunan nəticələr diqqət mərkəzində saxlanılmış və qlobal dünya maliyyə sistemindəki tendensiyalar əsas götürülməklə metodoloji üslublar müəyyənləşdirilmişdir. Tədqiqatın tətbiqi əhəmiyyəti - alınmış nəticələrdən və elmi-iqtisadi müddəalardan, tövsiyə və təkliflərdən Azərbaycanda texnoparklar şəbəkəsinin genişləndirilməsi və yüksək texnologiyalar əsaslı yeni texnoparkların yaradılmasında ciddi arqumentlərə söykənmiş elmi-praktiki zəminin formalaşdırılmasında istifadə etmək olar. Tədqiqatın nəticələri – COVİD-19 pandemiyasının təsirindən yaranan yeni şəraitdə və işğaldan azad olunmuş ərazilərdə çoxfunksiyalı texnoparkların yaradılması və bununla bağlı iri layihələrin həyata keçirilməsinin maliyyə-investisiya mexanizmlərinin işlənməsindən və tətbiqindən ibarətdir. Tədqiqatın orijinallığı və elmi yeniliyi – tədqiqatda araşdırılan problemlərə qlobal səviyyədə baş verən hadisələrin və ölkəmizdə bununla bağlı formalaşan mühitin adekvatlıq problemlərinin həllində yeni konseptual yanaşmaların ortaya qoyulması, zaman kəsiyində adekvat qərarların verilməsi və texnoparkların maliyyə mexanizmlərinin maksimum təkmilləşdirilməsi strateji əhəmiyyət kəsb edir. Bu baxımdan, qeyri-neft sektoru sahələrinin genişləndirilməsində və investisiyaların cəlb olunmasında ciddi önəm daşıyan texnoparkların maliyyə mexanizmlərinin işləkliyi və alternativ maliyyə mənbələrinin yaradılmasının vacibliyi əsaslandırılmış, bunlarla bağlı tələb olunan fəaliyyət istiqamətləri müəyyənləşdirilmişdir. Dövlət dəstəyi mexanizmləri və dövlət büdcəsindən maliyyələşdirmə mənbələri ilə yanaşı, texnoparklarda alternativ maliyyə mənbələrinin formalaşdırılması və ya cəlb olunmasının vacibliyi diqqətə çatdırılmışdır.*

***Açar sözləri:*** *texnoparklar, maliyyə mexanizmləri, maliyyə mexanizmlərinin xüsusiyyətləri, maliyyə mexnaizmlərinin qiymətləndirilməsi, maliyyə-investisiya prioritetləri, texnoparklarda vergi güzəştləri, texnoparklarda dövlət dəstəyi mexanizmləri*

## Giriş

Hər bir ölkənin uğurlu iqtisadi siyasəti onun innovativ infrastrukturunun nə qədər inkişaf etməsi ilə izah edilə bilər. Çünki, ərazinin rəqabət qabiliyyətini artıran və bütövlükdə

*©Həmid Aqil oğlu Hüseynzadə Sumqayıt Dövlət Universiteti, "Dünya iqtisadiyyatı və marketinq" kafedrası, doktorant. E-mail: hemid.huseynzada@bk.ru*
*©AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

dövlətin innovativ iqtisadiyyatına təsir edən innovasiyaların inkişafı və geniş yayılmasıdır. Məhz buna görə də ölkədə innovasiya infrastrukturlarının fəaliyyətinə təkan vermək çox vacibdir. İnnovasiya infrastruktur dedikdə, innovativ layihələrin həyata keçirilməsinə, o cümlədən idarəetmə, maddi-texniki, maliyyə, informasiya, kadr, konsaltinq, təşkilati və digər xidmətlərin göstərilməsinə töhfə verən təşkilatlar məcmusu başa düşülür. İnnovasiya iqtisadiyyatının formalaşması üçün iqtisadi sistemdə məqsədi innovativ fəaliyyəti dəstəkləmək və stimullaşdırmaq olan ixtisaslaşmış təşkilat və qurumların olması zəruridir. Məhz onlar innovasiya infrastrukturunu formalaşdırırlar. İnfrastrukturun əsas elementlərinə texnoparklar, innovasiya mərkəzləri, biznes inkubatorlar, texnopolislər daxildir. Texnopark özü isə zəruri sənaye və texnoloji infrastrukturla təchiz edilmiş, ərazisində elmi tədqiqatların həyata keçirilməsini və belə tədqiqatların nəticələrinin istehsalata tətbiqini sürətləndirmək mümkün olan sahədir. Texnoparklarda innovativ fəaliyyətin təşkili üçün əlverişli şərait yaradılır. Onlar bilik tutumlu firma və texnologiyaların inkişafını, perspektivli innovasiyaların seçilməsini və dəstəklənməsini təmin edirlər. Yəni, texnoparklar elmi, texnoloji və sənaye sahibkarlığının davamlı inkişafının təmin edilməsinə, yeni kiçik və orta müəssisələrin yaradılmasına kömək edəcək iqtisadi mühitin formalaşdırılmasına cavabdehdirlər. Texnoparkların səmərəli inkişafı ölkənin inkişafı üzrə strateji planın işlənib hazırlanmasında, o cümlədən dövlətin sosial-iqtisadi siyasətinin formalaşdırılmasında və əsaslandırılmasında, inkişafının prioritet istiqamətlərinin müəyyən edilməsində mühüm əhəmiyyət kəsb edir. Prof. Ş.T.Əliyev yazır: “Texnoparklar-əsas etibarilə bir çox fəaliyyət sahələrinin, məsələn, elm, istehsalat, maliyyə-investisiya təşkilatlarının, xidmət strukturlarının birliklərin qarşılıqlı fəaliyyətinin cəmləşdirildiyi çoxfunksiyalı fəaliyyət mərazisidir” [1]. Texnoparkların səmərəli inkişafı üçün onların fəaliyyəti düzgün qiymətləndirilməlidir. Texnoparkların səmərəliliyini qiymətləndirərkən nəzərə almaq lazımdır ki, mahiyyət etibarı ilə onların yaradılması uzunmüddətli layihələrdir. Texnoparkların uğuru isə mövcud regionun infrastrukturunun innovasiya prosesinə maksimum cəlb edilməsi üzrə fəaliyyətlə müəyyən edilir. Texnopark inkişaf edərkən yerləşdiyi rayonun və ya şəhərin sosial-iqtisadi həyatının mərkəzinə çevrilir. Bu baxımdan, texnoparkların formalaşması, fəaliyyətinin səmərəliliyinin əsas aspektlərindən biri kimi onların konkret ərazilərin sənaye ixtisaslaşması ilə əlaqəsi hesab edilə bilər [2, s. 479]. Qeyd olunan amillər baxımından texnoparklardan səmərəli istifadə edilməsi milli iqtisadiyyatın artım imkanlarını genişləndirər, yeni əlavə dəyər mənbələrinin yaradılmasını stimullaşdırar, amma bunun üçün texnoparkların maliyyə mexanizmləri müasir dövrün tələblərinə cavab verməlidir

**Qlobal şəraitdə texnoparkların fəaliyyətinin qiymətləndirilməsi və maliyyələşdirilməsi problemlərinə yanaşmalar**

Dünyada qlobal problemlərin artdığı bir dövrdə milli iqtisadiyyatın strukturunun təkmilləşdirilməsində və rəqabətqabiliyyətli məhsulların istehsalında, xarici investisiyaların daha intensiv cəlb edilməsində texnoparkların fəaliyyəti məhsuldarlığı ilə fərqlənir. Məlumdur ki, texnoparkların fəaliyyətinin qiymətləndirilməsi üçün bir sıra keyfiyyət meyarları mövcuddur və bunları növbəti formada ümumiləşdirmək olar:

- Yüksək texnologiyalara əsaslanan investisiya layihəsinin düzgün və dəqiq hazırlanmış mexanizmi;
- Texnoparkların yaradılması məqsədlərinin bu sahədə mövcud dövlət proqramlarının məqsəd və prioritetlərinə uyğunluğu;
- Yaradılan texnoparkın ixtisaslaşmasının dövlətin iqtisadi inkişaf strategiyalarına uyğunluğu;
- Yaradılan texnoparkın regionun inkişafına müsbət təsirinin qiymətləndirilməsi;



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

- Dövlət vəsaitlərinin cəlb edilməsi əsasında texnoparklara qoyulan investisiyaların əsaslandırılması;
- Texnoparkların fəaliyyəti üçün infrastruktur obyektlərinin mühəndis şəbəkələrinin mövcudluğu;
- Texnoparkların yaradılması üçün torpaq sahələrinin mövcudluğu;
- Texnoparklarda yaradılan məhsul və xidmətlərin rəqabətqabiliyyətliliyinin qiymətləndirilməsi.

Bu meyarlar nəzərə alınmaqla, texnoparkların fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi mümkündür. Bunun üçün müəyyən keyfiyyət meyarlarına əsaslanmaqla göstərilən düsturdan istifadə edə bilərik:

$$S = \frac{\sum_{i=1}^{K_i} b_i}{K_{ü.s.} - K} \times 100\%$$

Burada $S$ – texnoparkların fəaliyyətinin səmərəliliyi; $K_{ü.s.}$ – keyfiyyət meyarlarının ümumi sayı; $K$ – $i$-ci keyfiyyət meyarı; $b_i$ - $i$-ci keyfiyyət meyarının qiymətləndirmə balı [3, s. 30].



Müasir dövrdə texnoparkların fəaliyyətinin qiymətləndirilməsi üçün vahid sistemli mexanizm yoxdur və texnoparkın fəaliyyətinin keyfiyyət, həmçinin kəmiyyət meyarlarının təhlili əsasında qiymətləndirilməsi sisteminin yaradılması vacib hesab edilir. Bu, texnoparkın maliyyə vəziyyətini daha obyektiv qiymətləndirməyə və lazım gəldikdə dövlət tərəfindən maliyyə dəstəyi göstərməyə imkan verir. Texnoparkların fəaliyyətinin qiymətləndirilməsinin mühüm meyarlarından biri maliyyə təminatıdır. Texnoparkların səmərəli inkişafında məhz maliyyə mexanizmləri xüsusi rola malikdir. Bu halda, texnoparkın maliyyələşdirilməsinin əsas mənbələri dövlət büdcəsinin vəsaitləri, təsisçilərin və donorların maliyyə vəsaitləri, texnoparkların yaradılması üçün torpaq sahələrinin dəyəri, bank kreditləri, qrantlar, subsidiyalar, xarici investisiyalar və digərləridir. Ümulikdə, texnoparkların dövlət tərəfindən maliyyələşdirilməsi şəkil 1-də göstərilən müvafiq səviyyəli büdcələr hesabına təmin oluna bilər.

**Şəkil 1.**

**Texnoparkın dövlət tərəfindən maliyyələşdirilməsi**




© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Texnoparkların dövlət tərəfindən maliyyələşdirilməsi mexanizmləri əksər dünya dövlətləri üçün prioritetlik təşkil edir və çoxfunksiyalı, səmərəli texnoparklar əsas etibarilə iqtisadi və texnoloji cəhətdən inkişaf etmiş ölkələrdə yaradılmışdır və bu məsələlərdə başlıca təkanverici amil optimal, eyni zamanda güclü maliyyə təminatı mexanizmlərinin olmasıdır.

**Azərbaycanda texnoparkların yaradılması, inkişaf etdirilməsi və maliyyə mexanizmlərinin formalaşdırılması prosesləri**

Azərbaycanda texnoparkları inkişaf etdirmək məqsədilə onlara büdcədən subsidiyaların verilməsi qaydasını, məqsədlərini və şərtlərini müəyyən edən bir sıra qərarlar qəbul edilmişdir. Bu subsidiyalar texnopark obyektlərinin yaradılması üzrə investisiya layihələrinin həyata keçirilməsi baxımından əhəmiyyətlidir. Subsidiyalar ölkənin təsis qurumlarının büdcələrinin və ya texnopark obyektlərinin yaradılması və inkişafı üçün regional büdcələrin xərclərinin birgə maliyyələşdirilməsi normalarına uyğun olaraq verilir. Regional qanunlara uyğun olaraq texnoparkların ərazisində həyata keçirilən fəaliyyətdən əldə edilən mənfəətə münasibətdə texnoparkların rezidentləri olan təşkilatlar üçün regional büdcəyə ödənilən gəlir vergisinin güzəştli dərəcələrinin tətbiqi mümkündür. Rezident təşkilatlar tərəfindən texnoparkın ərazisində həyata keçirilən fəaliyyətdən əldə edilmiş gəlirlərin (xərclərin) və fəaliyyəti həyata keçirərkən əldə edilmiş gəlirlərin (xərclərin) ayrıca uçotunun aparılması mənfəət vergisinin azaldılmış dərəcəsinin tətbiqi üçün şərt ola bilər. Dövlət kifayət qədər texnoparkların fəaliyyətinin inkişaf etdirilməsində mühüm rol oynayan elmi-tədqiqat işlərini maliyyələşdirmir. Ayrı-ayrı strateji əhəmiyyətli innovasiya layihələri üzrə texnoparkların maliyyələşdirilməsi xərclərinin artırılması tövsiyə olunur. Bu, iqtisadi effekt əldə etməyə imkan verəcək: ölkədə ÜDM-in artımı, əhalinin həyat səviyyəsinin yüksəlməsi, bütün səviyyələrin büdcələrinə vergi ödənişlərinin artırılması. Cədvəl 1 vasitəsilə ölkəmizdə tədqiqat və işləmələrə çəkilən daxili xərclərin maliyyə mənbələrinin təhlilini nəzərə çatdırmışıq



**Cədvəl 1.**

**Tədqiqat və işləmələrə çəkilən daxili xərclərin maliyyə mənbələri**

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|
| **Tədqiqat və işləmələrə çəkilən daxili xərclər - cəmi, min manat** | **120943,6** | **124721,3** | **129871,8** | **147468,3** | **163890,4** | **162452,5** |
| **büdcə vəsaiti** | 79530,0 | 85291,8 | 87270,1 | 101323,2 | 120553,8 | 122735,5 |
| **büdcədən kənar vəsait** | 353,9 | 493,2 | 923,5 | 824,9 | 950,8 | 1 271,2 |
| **öz vəsaiti** | 7 073,3 | 10760,9 | 13805,0 | 14073,6 | 12130,7 | 9 436,2 |
| **sifarişçinin vəsaiti** | 33482,4 | 26375,6 | 27772,0 | 31246,6 | 30255,1 | 29009,6 |
| **ali təhsil müəssisələrini saxlamaq üçün büdcə təxsisatları** | 504 | 1799,8 | - | - | - | - |
| **xarici mənbələrin vəsaiti** | - | - | 101,2 | - | - | - |

Mənbə: ARDSK məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.

Cədvəl 1-dən göründüyü kimi, 2020-ci ildə tədqiqat və işləmələrə çəkilən daxili xərclərin 75,2%-i dövlət büdcəsi hesabına təmin edilmişdir. Buna baxmayaraq, tədqiqat və işləmələrə çəkilən daxili xərclərin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi çox kiçik rəqəmlə ifadə olunur. Belə ki, 2020-ci ildə dövlət büdcəsinin xərcləri 26416,3 min manat təşkil etmişdir. Bunun 162452,5 min manatı və yaxud 0,6%-i tədqiqat və işləmələrə çəkilən xərclərdir [4]. Tədqiqat və işləmələrə çəkilən daxili cari xərclərə gəlincə, bunlar 2020-ci ildə 160981,7 min manat təşkil etmişdir ki, bunun da 55,7%-i fundamental tədqiqatlara, 22,4%-i tətbiqi tədqiqatlara, 21,9%-i isə işləmələrə yönəldilmişdir (cədvəl 2).

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Cədvəl 2.**

**Tədqiqat və işləmələrə çəkilən daxili cari xərclər**

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|
| **Tədqiqat və işləmələrə çəkilən daxili cari xərclər – cəmi, min manat** | **118643,3** | **120782,3** | **127997,0** | **144997,9** | **161299,9** | **160981,7** |
| **o cümlədən:** | | | | | | |
| **fundamental tədqiqatlar** | 61025,6 | 67130,7 | 68841,9 | 80537,0 | 86620,9 | 89685,9 |
| **tətbiqi tədqiqatlar** | 23585,9 | 21227,8 | 24157,0 | 25876,3 | 38804,3 | 36005,5 |
| **işləmələr** | 34031,8 | 32423,8 | 34998,1 | 38584,6 | 35874,7 | 35290,3 |
| **o cümlədən:** | | | | | | |
| **layihə-konstruktor və texnoloji işlər** | 27479,8 | 23121,2 | 26493,3 | 29730,5 | 29083,3 | 30399,4 |
| **sınaq nümunələrinin, dəstlərin, məmulatların hazırlanması** | 2605,7 | 7026,4 | 8389,4 | 8618,4 | 6757,4 | 4699,9 |
| **tikinti üçün layihə işləri** | 3946,3 | 2276,2 | 115,4 | 235,7 | 34,0 | 191,0 |

Mənbə: DSK məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur

Texnoparkların fəaliyyətinin səmərəli təşkilində vergi güzəştlərinin rolunu da qeyd etmək lazımdır. Vergi güzəştləri bir və ya bir neçə vergiyə münasibətdə müəyyən edilə bilər, belə ki, texnoparkların mənfəət vergisi ilə yanaşı, əmlak vergisi, torpaq vergisi üzrə də güzəştlər müəyyən edilir. Məsələn, texnoparkların əmlak komplekslərinə münasibətdə texnoparkların idarəedici təşkilatlarını müəyyən müddətə vergi ödəməkdən azad etmək olar. Torpaq vergisinə gəldikdə, texnoparkların idarəedici təşkilatları üçün texnoparkların yerləşdiyi torpaq sahələri üçün hesablanmış dərəcəsini müəyyən illər üçün azaltmaq mümkündür. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Prezidentinin "Yüksək Texnologiyalar Parkının yaradılması haqqında" 2012-ci il 5 noyabr tarixli və "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" 2012-ci il 21 dekabr tarixli Fərmanları imzalanmışdır ki, həmin fərmanlarda sənaye və texnopark rezidentlərinin 7 il müddətinə vergidən azad edilməsi və gömrük güzəştrlərinin verilməsi nəzərdə tutulmuşdur [5]. Bunlarla belə 2020-ci il yanvarın 1-dən Vergi Məcəlləsinə yeni dəyişikliklərə əsasən həmin qeyd olunan güzəşt müddəti 7 ildən 10 ilədək artırılmışdır.

**Şəkil 2.**

**Azərbaycanda texnoparklara verilən güzəştlər**




© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Texnoparklar yerli və xarici investorlar üçün cəlbedici məkanın təşkili, müvafiq həvəsləndirmə sisteminin və güzəşt mexanizmlərinin olması baxımından əhəmiyyətli üstünlüklərə malikdir. Son onilliklərdə dünyanın texnoloji cəhətdən inkişaf etmiş ölkələrinin əksəriyyəti innovasiyaları stimullaşdırmaq üçün getdikcə daha çox müxtəlif mexanizmlərdən istifadə etməyə başlayıblar. Bu təcrübə birbaşa subsidiyalarla müqayisədə elm və innovasiyanı dəstəkləmək üçün daha effektiv üsul olduğunu sübut etmiş və tədqiqat və inkişafa əhəmiyyətli özəl investisiya axını yaratmışdır. Genişləndirilmiş təkrar istehsal siyasətinin həyata keçirilməsini və elmi-texniki tərəqqinin sürətləndirilməsini, ictimai istehsalın sahə strukturunda islahatların aparılmasını və həm emal sənayesinin, həm də xammal sənayesinin tarazlı inkişafını təmin etmək üçün makro səviyyədə investisiyalar mövcuddur. Məhsulların keyfiyyəti, xarici ticarət əməliyyatlarının strukturunun təkmilləşdirilməsi, sosial və ekoloji problemlərin həlli, ölkənin müdafiə qabiliyyətinin təmin edilməsi problemlərinin həlli investisiyaların istifadə səviyyəsindən asılıdır. Mikroiqtisadi miqyasda investisiyalar bunları təmin etmək üçün daha çox lazımdır: İstehsalın genişləndirilməsi; Əsas fondların mənəvi və fiziki aşınmasının qarşısının alınması və istehsalın texniki səviyyəsinin yüksəldilməsi; Şirkətin məhsullarının keyfiyyətinin yüksəldilməsi; Ətraf mühitin mühafizəsi üzrə tədbirlərin həyata keçirilməsi və Müəssisənin digər məqsədlərinə nail olunması [6, s.49].

Rəqəmsal texnologiyaların tətbiqinin intensivləşməsi ilə əlaqədar olaraq texnoparkların investisiya fəaliyyətinin stimullaşdırılmasının əsas şərtlərindən biri rəqəmsallaşmanın sürətləndirilməsidir. Cəmiyyətin rəqəmsal transformasiyasının formalaşması şərtləri ilə əlaqədar olaraq, dövlət milli iqtisadi sistemin işləməsi üçün şərtlərin dəyişdirilməsi ilə bağlı strateji qərar qəbul etməli, həmçinin rəqəmsal iqtisadiyyatın inkişafında mühüm strateji rol oynayan rəqəmsal iqtisadiyyat proqramını formalaşdırmalıdır. İqtisadiyyatın rəqəmsal transformasiyasının və müəssisələrin təsərrüfat fəaliyyətinin əsas istiqamətləri və perspektivləri növbətililər ola bilər: iqtisadi artımın güclənməsi və insanların ehtiyaclarını ödəyən məhsulların istehsalında maddi xərclərin azalması; sənaye istehsalının kütləvi avtomatlaşdırılmasının baş verməsi ilə insan əməyi kompüter proqramları və robotlarla əvəz olunması; rəqabət siyasətinin inkişafının, rəqabət münasibətlərinin şəffaflığının və biznesin kartelləşmə sürətinin aşağı salınmasının təmin edilməsi [7, s.116].



**Azərbaycanda texnoparklardan maliyyə mexanizmlərinin təkmilləşdirilməsi istiqamətləri**

İnnovativ layihələrin özünümaliyyələşdirməsi və özünü təmin etməsi, investorlar üçün əlverişli şəraitin yaradılması texnoparkların fəaliyyətinin prioritet istiqamətlərindən biridir. İnnovasiyanın inkişafına dövlət dəstəyi tədbirlərinin ardıcıllığını təmin edilməsi, innovasiyanın stimullaşdırılması məqsədilə maliyyə tədbirlərinin tətbiqi konsepsiyasının formalaşdırılması, bununla da texnoparkın fəaliyyətinin səmərəliliyinin artırılması üçün müəyyən normativ-hüquqi tədbirlərin həyata keçirilməsi prosedurunun hazırlanması zəruridir [8, s.11]. Ümumiyyətlə, bu gün innovativ fəaliyyətlə məşğul olan təşkilatların maliyyələşdirilməsini dəstəkləmək üçün bir çox alət və üsullar mövcuddur. Bu baxımdan elm tutumlu texnologiyaların tətbiqi və inkişafı üçün əlverişli mühitin yaradılması məqsədilə texnoparkların maliyyə mexanizmlərinin təkmilləşdirilməsi məsələsi getdikcə daha çox aktuallıq kəsb edir. Maliyyə idarəetməsi prosesində texnoparklar innovativ fəaliyyətin nəticələrinin real istehsalda səmərəli tətbiqinə mane olan müxtəlif problemlərlə üzləşirlər. İnnovasiyalar sahəsində yüksək nəticələr əldə etmək üçün texnoparkın maliyyə vəziyyətinin optimal səviyyəsinə nail olmaq və saxlamaqla səmərəli idarə etmək lazımdır. Texnoparkın yüksək texnologiyalar sahəsində səmərəli maliyyə siyasəti yeni innovativ texnologiyaların və ya məhsulların hazırlandığı vahid inteqrasiya platformasının möhkəmlənməsinə kömək edir.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Ölkəmizin investisiya potensialına texnoparkların inkişaf səviyyəsi təsir göstərir. Belə ki, ölkədə çoxlu sayda texnoparkların olması gələcəkdə iqtisadiyyatın müxtəlif sahələrinin istehsalına tətbiq olunan inkişaf etmiş qabaqcıl texnologiyaların xüsusi çəkisinin artmasına şərait yaradar. Texnoparkların işinin nəticələri onların yerləşdiyi ölkənin təsis qurumunun maraqlarına uyğun olmalıdır.

Texnoparklarla bağlı maliyyə mexanizmlərinin təkmilləşdirilməsi məqsədilə bir sıra səmərəli investisiya alətlərindən istifadə etmək, vəsaitlərin məqsədyönlü istifadəsinə sistemli şəkildə nəzarət etmək, texnoparkın risklərinin ehtimalını qiymətləndirmək lazımdır. Bunun üçün törəmə alətlərdən (hedcinq) istifadə etmək, mümkün maliyyə itkilərini azaltmaq üçün qiymətli kağızlarla müxtəlif əməliyyatlar (svoplar, opsion müqavilələri, fyuçers müqavilələri) həyata keçirmək, səhmdarların, təsisçilərin və investorların depozitlərinin satışı, aktivlərin bir hissəsinin onlara verilməsi yolu ilə maliyyə siyasətinin səmərəliliyini artırmaq üçün investisiyaların maliyyələşdirilməsi alətlərindən istifadə edilməsi vacibdir. Texnoparkların pul axınının artmasına onların ərazisində həm texnopark işçiləri, həm də ali məktəblərdə təhsil alan tələbələr üçün nəzərdə tutulmuş yaşayış binalarının tikintisi kömək edər. Bundan başqa, təcrübə mübadiləsi proqramları çərçivəsində müxtəlif elmi konfranslara gələcək texnoparkların qonaqları üçün onların ərazisində mehmanxanaların və mehmanxana tipli müəssisələrin yerləşdirilməsinə diqqət yetirilməlidir [9, s.294]. Ümumiyyətlə, innovasiyaların fasiləsiz inkişafını təmin etmək məqsədilə texnoparklara maliyyə resursları cəlb etmək üçün yeni kanallar axtarmaq lazımdır. Həmin resurslarının səmərəli bölüşdürülməsinə və istifadəsinə nail olmaq lazımdır. Texnoparklarda maliyyə və investisiya resursları maliyyə siyasətinə uyğun formalaşdırılır, müvafiq maliyyə mexanizmləri ilə idarə olunur. Maliyyə mexanizminin fəaliyyəti maliyyə resurslarının yaradılması, bölüşdürülməsi və səmərəli istifadəsinə xidmət edir. Maliyyə mexanizmləri maliyyə metodları, tənzimləmə və informasiya təminatı kimi bir sıra əaqəli elementlərdən ibarətdir. Texnoparkın investisiya resurslarına daxildir: pul, məqsədli bank depozitləri, kreditlər, daşınar və daşınmaz əmlak, qiymətli kağızlar, elmi, texniki, texnoloji və digər biliklərin məcmusu [10]. Texnoparkın maliyyə resurslarının səmərəli bölüşdürülməsinə və istifadəsinə imkan verən maliyyə siyasətinin hazırlanması məqsədəuyğundur. Birincisi, texnoparklar maliyyə risklərinin hedcinqinə yönəlmiş törəmə alətlərdən (svoplar, opsion müqavilələri, fyuçers müqavilələri) fəal şəkildə istifadə etməlidirlər. Yəni, qiymətli kağızlarla müxtəlif əməliyyatların həyata keçirilməsi yolu ilə riski və mümkün maliyyə itkilərini azaltmaq üçün istənilən mexanizmlərdən aktiv istifadə etməlidir. İkincisi, səhmlərin, təsisçilərin və investorların depozitlərinin satışı, texnoparkın aktivlərinin bir hissəsinin onlara verilməsi yolu ilə kapitalın maliyyələşdirilməsi alətlərindən istifadə onlara texnoparkın vəsaitlərinin məqsədli istifadəsinə nəzarəti tam həyata keçirməyə imkan verəcək. Üçüncüsü, texnopark üçüncü şirkətlərə kreditlər verə və gələcəkdə faizlə birlikdə pulu geri ala bilər. Dördüncüsü, texnoparkların ərazisində həm onların işçiləri, həm də ali məktəblərdə təhsil alan tələbələr üçün nəzərdə tutulmuş yaşayış binalarının tikintisi buraya pul axınının artmasına töhfə verməlidir [11].

Texnoparkın səmərəli maliyyə siyasətinin işlənib hazırlanmasının mümkün yollarını nəzərə alaraq, onların maliyyələşdirilməsinin formalaşmasında əsas həlqə olan dövlət tərəfindən maliyyə dəstəyinə xüsusi diqqət yetirilməlidir. Çünki onların əksəriyyəti dövlət tərəfindən subsidiyalaşdırılmaya ehtiyac duyurlar. Texnoparklarda maliyyə mexanizmlərinin səmərəli işləməsi üçün bir sıra şərtlərin qorunması vacibdir: texnoparkların fəaliyyətinin hüquqi tənzimlənməsi; texnoparklara vergi güzəştlərinin, subsidiyaların, dövlət preferensiyalarının verilməsi şərtləri barədə məlumatların kifayət qədər olması; elmi-tədqiqat və təcrübi-konstruktor işləri üçün maliyyə çatışmazlığı problemlərinin aradan qaldırılması; vençur maliyyələşdirmə sisteminin inkişaf etdirilməsi və texnoparkların fəaliyyətinin sistemli



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

monitorinqinin təşkili və aparılması. Cədvəl 3-də Texnoparkların maliyyələşdirilməsinin səmərəliliyinin təmin edilməsinin dövlət dəstəyi tədbirləri əks olunmuşdur.

**Cədvəl 3.**

**Texnoparkların maliyyələşdirilməsinin səmərəliliyinin təmin edilməsinin dövlət dəstəyi mexanizmi**

| Problem | Həll mexanizmi |
|---|---|
| Texnoparkın fəaliyyətinin maliyyələşdirilməsinin hüquqi tənzimlənməsi | Azərbaycan Respublikasının bütün ərazisində "Texnoparkların maliyyələşdirilməsi haqqında" qanunun hazırlanması, təkmilləşdirilməsi və səmərəli şəkildə tətbiqi |
| Vergi güzəştlərinin, subsidiya-ların, dövlət üstünlüklərinin verilməsi şərtləri | Texnopark iştirakçılarını güzəştli vergi ödəyiciləri kateqoriyasına ayırmaq, texnoparklarda sığorta haqlarının aşağı faiz dərəcəsi ilə ödənilməsi üçün xüsusi tarifin işlənib hazırlanması, dövlət qrantlarının verilməsi proqramlarının hazırlanması. |
| Elmi-tədqiqat və təcrübi konstruktor işlərinin maliyyə-ləşdirilməsi | İnnovativ layihələrin maliyyələşdirilməsi xərclərinin artırılması. |
| Vençur maliyyələşdirməsinin inkişafı | İlkin maliyyələşdirmə fondlarının yaradılması |
| Texnoparkın maliyyələşdiril-məsinin səmərəliliyinin qiy-mətləndirilməsi | Texnoparkın fəaliyyətinin maliyyə göstəricilərinin kəmiyyət və keyfiyyət göstəriciləri üzrə dəqiq qiymətləndirilməsi metodikasının hazırlanması |

Texnoparkların fəaliyyətinin maliyyələşdirilməsinin qanunvericilik səviyyəsində hüquqi tənzimlənməsi problemi texnopark iştirakçılarının hüquqi statusunu, maliyyələşdirmə üsullarını və formalarını müəyyən edəcək bu sahədə təkmil qanunvericiliyin hazırlanması yolu ilə həll edilməlidir. Bundan başqa, texnoparklara vergi güzəştlərinin, subsidiyaların və dövlət üstünlüklərinin verilməsi şərtləri sahəsinə də diqqət yetirmək tələb olunur.

**Nəticə**

Ölkəmizdə texnoparkların maliyyə mexanizmlərinin təkmilləşdirilməsi və onların səmərəliliyinin artırılması məsələləri müasir yanaşmaları tələb edir. Xüsusilə, Azərbaycanda vençur kapitalının maliyyələşdirilməsinin inkişaf etdirilməsi probleminin həlli texnoparkların inkişafının ən erkən mərhələsində innovativ layihəni maliyyələşdirəcək ilkin kapital fondları yaratmaqla həll etmək məqsədəuyğundur. Güclü dövlət dəstəyi real istehsalda innovativ layihənin həyata keçirilməsi şanslarını artıracaq, bu da yerli məhsulların bazarda rəqabət qabiliyyətinin səviyyəsini yüksəldəcək. Bu tədbirlərin tətbiqi Azərbaycanda texnoparkların səmərəliliyini artırmağa, ölkədə investisiya və sahibkarlıq mühitini yaxşılaşdırmağa imkan verə bilər: texnoparkların səmərəli fəaliyyəti üçün innovativ layihənin planlaşdırılmasından tutmuş tədqiqatçıların və gələcək rezidentlərin seçilməsinə qədər texnoparkların maliyyə siyasətinin formalaşdırılmasına sistemli və məsuliyyətli yanaşma tələb olunur; texnoparkların müxtəlif investisiya alətlərindən (səhmlərin maliyyələşdirilməsi, təşkilatların kreditləşdirilməsi, investorların birgə maliyyələşdirilməsi, törəmə maliyyə alətləri) fəal istifadəsi, dövlət dəstəyi Azərbaycan Respublikasının və onun regionlarının investisiya cəlbediciliyini artırmaqda əlavə stimullar verə bilər; postpandemiya dövründə və işğaldan azad olunmuş ərazilərin dirçəldilməsi proseslərində texnoparklar şəbəkəsinin yaradılması və onların güclü maliyyə mexanizmlərinin tətbiqi sayəsində yüksək texnologiyalar, o cümlədən, "ağıllı" texnologiyalar əsaslı daha uğurlu innovativ layihələr hazırlanaraq ölkə iqtisadiyyatının strukturunun təkmilləşdirilməsində, regional inkişafın yeni səviyyəyə qaldırılmasında, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının potensialından səmərəli istifadə olunmasında, rəqabətqabiliyyətli və ixracyönlü məhsulların çeşidinin genişləndirilməsində və həcminin artırılmasında yüksək nəticələrin əldə olunacağını proqnozlaşdırmaq mümkündür.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Ədəbiyyat**


1. Əliyev, Ş.T. Azərbaycan iqtisadiyyatı. Sumqayıt, 2018. - 376 s.
2. Шаповалова, К.С. Оценка эффективности деятельности технопарков // 76-я научная конференция студентов и аспирантов Белорусского государственного университета: материалы конференции: в 3-х частях, Минск, 13–24 мая 2019 года/Белорусский государственный университет. Минск: Белорусский государственный университет, 2019, с.478-481.
3. Mahmudov, Ə.K. Qlobal transformasiyalar şəraitində texnoparkların iqtisadiyyatın modernizasiyasında strateji əhəmiyyəti. AMEA-nın Elmi əsərləri, 2019, № 2, s. 28-34].
4. Azərbaycanın sənayesi. Statistik məcmuə. /– Bakı, 2021. – 243 s.
5. Məhərrəmov, R. Ələt azad iqtisadi zonasında vergitutma məsələləri. Azərbaycanın Vergi jurnalı, 2019, № 1 (138), s.61-70 s.63; Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" AR Prezidentinin 2012-ci il 21 dekabr tarixli Fərmanı http://www.e-qanun.az/framework/24574.
6. Александрова, А.А., Ротар А. Г. Технопарки как механизмы привлечения инвестиций // Стратегия предприятия в контексте повышения его конкурентоспособности, 2016, № 5-1, с.49-52.
7. Милькина, И.В., Ершиков А.И., Кочнев С.В. Стимулирование инвестиционной деятельности в технопарках Московской области // Муниципальная академия, 2021, № 3, с.113-120.
8. Милькина, И.В., Ершиков А.И., Кочнев С.В. Стимулирование инвестиционной деятельности в технопарках Московской области // Муниципальная академия, 2021, № 3, с.113-120.
9. Завьялова, М.Ю. Модернизация финансовой политики технопарков как способ повышения инвестиционного потенциала регионов России // Азия - Россия - Африка: экономика будущего: Материалы IX Евразийского экономического форума молодежи. В 2-х томах, Екатеринбург, 17–20 апреля 2018 года. Екатеринбург: Уральский государственный экономический университет, 2018, с. 292-296.
10. Əliyev, Ə.Q., Şahverdiyeva R.O. Texnoparkların fəaliyyətinin müqayisəli qiymətləndirilməsi üzrə kompozit indikatorlar sisteminin işlənilməsinin elmi-metodoloji əsasları. İnformasiya cəmiyyəti problemləri, 2017, №1, s.61–74 s.66.
11. Завьялова, М.Ю., Шеина Е.Г. Совершенствование финансового механизма поддержки технопарков как фактор развития экономики РФ // Теоретические и практические аспекты трансформации налоговой системы России: Материалы Всероссийской научно-практической конференции, Ростов-на-Дону, 14 декабря 2018 года, Ростов-на-Дону: Издательско-полиграфический комплекс РГЭУ (РИНХ), 2018, с.152-157.


© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

***Гамид Агил оглу Гусейнзаде***

***Особенности и оценка финансовых механизмов в технопарках в современном периоде***

***Резюме***

*Цель исследования – состоит из определения особенности и оценки финансовых механизмов в технопарках в современном периоде. С этой целью раскрыта сущность и особенности финансовых механизмов, технопарков и важнейших проблем в данной сфере. Анализирована стратегическая роль технопарков и их критерии в развитии экономики страны. Рассмотрена оптимальность финансовых механизмов, применяемых в Азербайджане за последние годы. Указаны финансовые источники и анализированы внутренние расходы на исследовательские разработки в стране. Даны пути совершенствования действующих механизмов государственной поддержки финансирования и налоговых льгот в технопарках. Определены методические подходы к усилению финансовых механизмов в технопарках в нынешних условиях. Методология исследования – в статье использованы методы анализа и синтеза, обобщения и сравнения важнейших проблем и вопросов в определении особенностей и оценке финансовых механизмов в технопарках, использованы авторские подходы к выработке адекватных предложений и рекомендаций по совершенствованию данных механизмов. Практическая значимость исследования – полученные научно-практические результаты могут быть использованы в подготовке комплексных мероприятий и механизмов для усиления эффективности финансовых механизмов в технопарках Азербайджана. Результаты исследования – подготовлены соответствующие предложения и финансово-инвестиционные механизмы обеспечения деятельности многофункциональных технопарков в новых условиях, связанных с последствием пандемии COVID-19 и освобождением оккупированных территорий от захватчиков. Оригинальность и научная новизна исследования – заключается в разработке концептуальных подходов и формировании современных взглядов по проблемам максимального совершенствования финансовых механизмов, технопарков в контексте глобальных изменений и требований нынешнего времени. С этой целью обоснована стратегическая значимость разработки оптимальных финансовых механизмов, технопарков и новых альтернативных финансовых источников за счёт интенсификации развития ненефтяных секторов экономики. Обращено внимание на необходимость активизации привлечения альтернативных финансовых ресурсов, наряду с государственными финансами, в технопарки страны.*

***Ключевые слова:*** *технопарки, финансовые механизмы, особенности финансовых механизмов, оценка финансовых механизмов, финансово-инвестиционные приоритеты, налоговые льготы в технопарках, механизмы государственной поддержки в технопарках.*



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

***Hamid Agil Huseynzade***

***Features and evaluation of financial mechanisms in technology parks in the current period***

***Summary***

*Purpose of the research – is to determine the peculiarity and evaluation of financial mechanisms in technology parks in the modern period. The essence and peculiarities of financial mechanisms, technology parks and the most important problems in this area are analyzed for this purpose. The strategic role of technology parks and their criteria in the development of the country's economy are analyzed. Optimality of financial mechanisms applied in Azerbaijan in recent years is considered. Financial sources are indicated and domestic research expenditures in the country are analyzed. Ways are given to improve the existing mechanisms of state support for financing and tax benefits in technology parks. Methodological approaches to strengthening financial mechanisms in technology parks in the current conditions are identified. Research methodology – the article uses methods of analysis and synthesis, comparison of the most important problems and questions in determining the peculiarities and evaluation of financial mechanisms in technology parks, uses author's approaches to the development of adequate proposals and recommendations for improving these mechanisms. The practical importance of a research - the obtained scientific and practical results can be used in the preparation of comprehensive measures and mechanisms to strengthen the effectiveness of financial mechanisms in the technoparks of Azerbaijan. The results of the study - relevant proposals and financial and investment mechanisms were prepared to ensure the operation of multifunctional technology parks in the new conditions associated with the consequences of the COVID-19 pandemic and the liberation of the occupied territories from invaders. Originality and scientific novelty of the research is the development of conceptual approaches and the formation of modern views on the problems of maximizing the improvement of financial mechanisms, technology parks in the context of global changes and the requirements of the present time. To this end, the strategic importance of developing optimal financial mechanisms, technology parks and new alternative financial sources due to the intensification of the development of non-oil sectors of the economy is justified. Attention is drawn to the need to increase the attraction of alternative financial resources, along with public finances, to the country's technology parks.*

***Keywords****: technology parks, financial mechanisms, peculiarities of financial mechanisms, evaluation of financial mechanisms, financial and investment priorities, tax incentives in technology parks, mechanisms of state support in technology parks.*

***Elmi redaktor: i.f.d., dos.Y.Məmmədov.***
***Daxil olub: 02.11.2021.***
***Çapa qəbul olunub: 11.11.2021.***



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*